# Feminizm: anlayışlar, cərəyanlar, tədqiqat istiqamətləri

written by Nurlana Jalil Nurlana Cəlil
Bu məqalə feminizm haqqında təməl məlumatlardan bəhs edir və feminist diskursun çərçivəsini göstərir. Feminizmin formalaşdığı dövrlər, əsas siyasi-feminist cərəyanlar və onların mövzuları xülasə edilir, həmçinin feminist tədqiqatların istiqamətləri haqqında məlumat verilir. Azərbaycan ictimaiyyətində təkcə mühafizəkarlıqdan qaynaqlanan inkarçı mövqe deyil, həmçinin feminizm haqqında məlumatsızlıq feminist diskurs ətrafında yanlış fikirlərin güclənməsinə, antifeminizmin (bu anlayış aşağıda izah ediləcək) daha da möhkəmlənməsinə əsas verir. Bu səbəbdən də məqalə oxucuya feminizm haqqında təməl məlumatları çatdırmağı hədəfləyir və oxucunun geniş araşdırması üçün zəmin yaradır.

**Feminizmə giriş**

Feminizm cəmiyyətdəki münasibətləri, kişi və qadın arasındakı tabeçiliyi və cins nizamını tənqid edir. Feminizm cinsi tabeçilik, qadının kişiyə münasibətdə aşağı dəyərləndirilməsi və ayrı-seçkilik səbəblərinin elmi müstəvidə başa düşülməsi, bu kimi problemlərin aradan qaldırılması üçün yeni yanaşmalar təqdim edərək "qadınlar və kişilər arasındakı güc, iqtidar və zorakılıq fenomenlərinə fokuslanır" (Becker-Schmidt və Knapp 2011, 67). "Necə olub ki, cinslər arasında maddi, siyasi və simvolik, mədəni resursların qeyri-bərabər bölgüsü baş verib? Cinsiyyət ayrı-seçkiliyi strukturları necə izah edilməlidir, qadınların kişilərlə müqayisədə aşağı dəyərləndirilməsi və aşağı sinifləndirilməsi nə üçün baş verir, cinslərin bir-birindən ayrılması, gender qrupları arasında iyerarxik münasibətlər və gender fərqlilikləri barədə xüsusi təsəvvürlər bir-biri ilə necə əlaqə yarada bilir?" sualları feminist

diskursda müzakirə edilir (Becker-Schmidt və Knapp 2011, 67-68). Buna paralel olaraq, “feminizm qadınların həyat imkanlarının yaxşılaşması üçün siyasi praktik tədbirlər həyata keçirən, kampaniya və aksiyalarla təşəbbüs edən hərəkat” kimi də görülə bilər (Notz 2011, 9). Lakin bu məqalədə feminist diskursdan bəhs edilir deyə feminist hərəkatlara – onların formalaşması, genişlənməsi və təsisatlaşması kimi mövzulara toxunulmayacaq.

Feminist diskurs kişi və qadınlar arasında güc, iqtidar, ayrı-seçkilik və cins nizamı ətrafında aparılan arqumentativ dialoqdur. 1970-ci illərdən başlayaraq feminist diskursun tənqidi yanaşmaları oturuşmuş dəstxətdə dəyişikliklərə yol açır və *kişi mərkəzli* (*andosentrik*) nizamı mühakimə edərək, proqressiv yanaşmalar təklif edir (bundan əvvəlki dövr mühafizəkar feminizm adlanır və o, əsasən qanunverici müstəvidə qadınlara hüquq bərabərliyi tələb etməklə məhdudlaşır). Kişi mərkəzli nizam iki cinsli sistemdə kişi cinsi üçün sərfəli, qadın və LGBTIQ+ üçün isə əlverişsiz şəraitdə məhdud hərəkət, davranış və reallaşdırma fürsəti yaradır. Bu yazıda cins dedikdə bioloji yox, sosial cins nəzərdə tutulacaq.

Bioloji və sosial cins anlayışları nədir və bir-birindən necə fərqlənir? 1970-ci ildən istifadə edilən *bioloji cins* (məsələn, qız, oğlan) və *sosial cins* (yəni gender; məsələn, qadın, kişi) anlayışları bu problemlərdəki mübahisəli düyünlərin açılması üçün zəruri fərqləndirmə oldu. Bioloji cins bədənə görə təsnifatlandırılır, sosial cins isə sosial normativlər əsasında formalaşdırırlır. Tədqiqatçılar *kişilik* (maskulinlik) və *qadınlıq* (femininlik) normativlərinə və bu normativlərə əsaslanan gender rollarına fokuslandı. Keçən əsrin ortalarında sosial rollar anlayışı yarandı və tezliklə gender rollarına nəql edildi (Thomitzek 2012, 13). Simona de Bovuarın cinslər haqqında müşahidəsi ilk öncə pedaqogika və sosiologiya sahəsində rollar və sosializasiya nəzəriyyələrinin inkişafında tətbiq edildi (Krause 2003, 40). Qəlib olaraq, bioloji cinsə müvafiq gender rollarının yerləşdirilməsi, bu

zaman kişi bədənini güclü, qadın bədənini zəif xarakterizə edərək, bütün sahələrdə bölgülərin aparılması feminist diskursun mübahisələndirdiyi əsas mövzulardan oldu. Qadının məişət həyatında sıxışıb qalması, onun təhkim olunduğu həyat tərzində yaşamağa davam etməsi mühakimə edildi. Cinsin tabeçiliyi, kişi cinsinin dominantlığı və qadının əzilmə səbəbi tədqiq edilməyə başlandı.

Xüsusən də 1970-ci illərdən başlayaraq, feminizmin güclənməsində həmin dövrlərdə meydana gələn tələbə etirazları, gənc qadın və kişilərin təşkilatlanması, sol hərəkatların yaranması xüsusi rol oynayıb. Qadın hərəkatlarında edilən tələb akademik müstəvidə təhlillərə daşındı, nəzəri yanaşmalar qadın hərəkatlarının fəaliyyət istiqamətlərini yenilədi. Qadın və gender araşdırmalarının akademik sferada genişlənməsi ilə bu vaxta qədərki kişi mərkəzli baxış bucağının mühakiməsi başlandı. Bu da öz növbəsində həyatın bütün sahələrinə sirayət edən kişi mərkəzli yanaşmaların mübahisələndirilməsi və onların dəyişdirilməsinə olan tələbləri möhkəmləndirdi.

Artıq 1980-ci ildə bərabərlik və fərqlilik mövzusu feminist debatların əsas mövzusu idi (Becker-Schmidt və Knapp 2011, 8). Gender rollarının hər sahədə, münasibətlər və davranışlarda olan iyerarxik düzənin əsasında cəmiyyətin təsəvvür və sifarişinə uyğun olaraq formalaşdığı üzə çıxdı. Gündəlik həyatda niyə rollar tətbiq edilir və niyə bu rollar asimmetrikdir kimi sualların cavabı cinsin siyasi xarakter daşıdığını aktuallaşdırdı. “Gündəlik həyatın siyasətdən kənar bir zona olmayıb, cinsiyyət siyasətinin arenası” olduğu üçün gündəlik həyatda cinslərarası münasibətlərin asimmetriya problemi feminist hərəkatların və feminist tədqiqatların mövzuları oldu (Connel 2015, 47). *Şəxsi olan siyasidir* tezisi ətrafında şəxsi sahənin (məişət) siyasi motivləri əsaslandırıldı. Şəxsi həyatdakı tabeçiliyin, əmək istismarının, cinsi istismarın, cins əsaslı təyinatların, təhkim edilmiş rolların, habelə gender əsaslı qətllərin qadın üzərində qurulan iqtidar forması olduğu fikri irəli sürüldü.

Patriarxallıq konsepti bərabərlik və fərqlilik debatlarında əsas istinad yeri oldu və cinsi qeyri-bərabərliyin əsası, o cümlədən cinslər arasındakı fərqliliyə dair yanaşmalar patriarxallıq konseptinin izahından sonra daha da möhkəmləndi. Sinfi cəmiyyət, irqçilik, etnik ayrı-seçkilik və tabeçilik cinslər arası münasibətlərdə opressiv faktorlar kimi yer aldı. Bu səbəbdən feminizm emansipasiya, hüquq bərabərliyi əsasında tabeçilik, cinsi iyerarxiya, cinsi təsnifat və ayrı-seçkiliyə etiraz kimi formalaşıb. Lakin cins problemi ətrafında müzakirələr bu faktorlarla məhdudlaşmadı. Cins anlayışı özü problemin əsası kimi mühakimə edilməyə başlandı.

1990-cı illərdə dekonstruksiya, habelə qadınların sosial və mədəni heterogenliyi mövzusu önə çıxdı (Becker-Schmidt və Knapp 2011, 8). Artıq bu baxımdan, cins təkcə sosial aspekt sayılmadı, o, həm də siyasi xarakter daşıdığı üçün güc elementi kimi xarakterizə edildi və cinsin sosial-mədəni konstruksiya (inşa) olduğu əsaslandırıldı (Gildemeister və Wetterer 1992; Butler 1990). Postmodern feminizmdə (kuir nəzəriyyədə) bərabərsizliyin qaynağında təkcə cins konstruksiyasının yox, həm də seksuallığın konstruksiyasının rol aldığı müzakirə edildi. Yəni, təkcə cins yox, seksuallıq da sosial-mədəni inşadır. Cudit Batler cinsin performativ xarakter daşıdığını deyir, yəni bioloji bədənə ictimai rollar təyin edildiyi kimi eyni zamanda seksuallıq da ikili cins sisteminə müvafiq təyinatlandırılır (Butler 1990).

Feminist tədqiqatçılar təkcə sosializasiyanın deyil, elmin də kişi mərkəzli olduğunu iddia edir. O cümlədən, uzun müddət qadının fərd olaraq görülməməsi, həmçinin elm, fəlsəfə, siyasət, incəsənət və digər sahələrdə qadın perspektivinin nəzərə alınmaması cəmiyyətdəki tabeçilik, iyerarxiya və ayrı-seçkiliyi daha da dərinləşdirir. Qadınlar "təbiətin yaratdığına" əsasən passiv, evcil, sosial və tərbiyəçi kimi görülüb, məişət sferası isə onun "ən təbii" fəaliyyət sahəsi kimi qəbul edilib (Schößler 2008, 12). Bu cür təsəvvürün oturuşmasında elm sahələri (xüsusən, tibb, biologiya, psixologiya) də rol oynayıb.

Cins probleminin çox mürəkkəb olmasındandır ki, “liberal feminizm, sol feminizm, radikal feminizm, ekofeminizm, qaradərili feminizm, kiber feminizm, kuir feminizm-qeyri-konservativ feminizm və başqa yanaşmalar meydana çıxdı və burada ümumilikdən danışmaq mümkün deyil” (Notz 2011, 9). Hər bir feminist cərəyan və feminist nəzəri yanaşma qadınların əzilməsinin və ayrı-seçkiliyin aradan qaldırılmasına çalışır, eyni zamanda zorakı heteronormativliyin hegemoniyasına qarşı alternativlərlə çıxış edir.

Feminist fəaliyyətlərə baxmayaraq, cəmiyyətlər qadın problemlərinin mübahisələndirilməsinə qəzəblə yanaşır, mövcud nizamdan faydalanan qruplar cinslərarası güc balansının dəyişməsini təhlükə kimi görür. Mətbuatda, dövlət siyasətində, sosial mediada və başqa müxtəlif səviyyələrdə feminist diskurs və fəaliyyətlər etibarsızlaşdırılır, mühafizəkar nizama təhdid kimi təqdim edilir. Bu sadalananlar antifeminizm fəaliyyətlərə aid edilir. Buna görə antifeminizm fenomen kimi feminist diskursda ətraflı tədqiqat mövzusudur. Ute Planert (1998) *antifenimizm*i sosial formasiya və siyasi mentalitet kimi, *mizogeniya*nı ontoloji olaraq qadının az dəyərli təsəvvürü kimi, *qadın düşmənçiliyini* davranış və siyasi təcrübələrdə qadınlara qarşı ayrı-seçkiliyin tətbiqi kimi və *antifeministlər*i emansipasiya iddialarına qarşı reaksiyalar kimi təsnifatlandırır.

1902-ci ildə dərc edilmiş *Antifeministlər* adlı kitabında Hedvig Dohm antifeministləri dörd kateqoriyaya ayırıb: mövcud nizamın dəyişməsini istəməyən *köhnə inanclılar*; kişi dominantlığının itirilməsinə və qadın emansipasiyasına qarşı çıxan *kişilik təəssübkeşləri*; gündəlik həyatda mövcud tabeçiliyin yaratdığı iş bölgüsünün aradan qalxması ilə qadını istismardan məhrum ola biləcək deyə narahat olan *praktik eqoistlər*; və qadını “müqəddəslik təcəssümü və ya fahişə motivləri” əsasında müəyyənləşdirib, onları öz təsəvvürlərindəki obrazla ilahiləşdirən *cəfakeş ananın cəngavərləri* (Dohm 1976, 5-11; Mauer 2019, 93).

**Feminizmin dalğaları, mərkəzi cərəyanları və onların mövzuları**

Feminizm siyasi tələblərinə və əsas ideoloji baxışlarına görə üç dalğaya bölünür. Hər üç dalğada tələb, etiraz və həll formalarına görə müxtəlif siyasi cərəyanlar yer alır: peşə, siyasət və ailədə kişilərlə eyni xüsusi hüquqlara sahib olmağı tələb edən *liberal feministlər*, qadının əzilməsi və istismarına qarşı kapitalist transformasiyanı əsas götürən *marksist* feministlər, kapitalizm və patriarxallığın bir-birindən bəsləndiyini və sosialist nizamın bərqərar olmasının qadının azadlığından asılı olduğunu iddia edən *sosialist feministlər*, cinsiyyət tabeçiliyini cəmiyyətin fundamental quruluşu kimi görən və patriarxiyanın çökməsini hədəfləyən *radikal feministlər*, sinif, irq və cins kontekstində meydana gələn *qaradərili feministlər*, cins və seksuallığın patriarxal əsasla təhkiminə və cinsi təyinata qarşı etiraz edən *kuir feministlər* və  bu əsas siyasi cərəyanlardan qaynaqlanaraq yaranan digər bütün feminist alt cərəyanlar.

19-cu əsrdə formalaşan *birinci dalğa* qadınların kişilərlə eyni və bərabər hüquqi, siyasi, iqtisadi haqlara nail olması üçün burjua və proletar qadın hərəkatları ilə başlayıb. Bu dalğada liberal feminizmə müxalif yanaşma ilə marksist feminist cərəyan formalaşıb. Birinci dalğa feminizmdə “tələblər, əsasən, qadınların bərabər siyasi və iqtisadi hüquqları, təhsil və ictimai işləmək hüququ, bərabər əmək haqqı, daha yaxşı iş şəraiti, xüsusi hüquqda bərabər imkanlar və analıq haqlarının qorunması kimi məsələlərdə kişilərin sahib olduğu imtiyazlara uyğunlaşma məqsədi daşıyırdı” (Künzel 2012, 52). Birinci dalğa feminizmdə kişi və sahib olduğu hüquqlar norma kimi qavranıldığından qadının ona və onun sahib olduğu imtiyazlara uyğunlaşması əsas hədəf sayılırdı. Liberal feministlərə müxalif olaraq meydana gəlmiş marksist feministlər isə kapitalist sistemdə qadınların bərabər hüquqlara sahib olması heç nəyi dəyişməyəcəyini və kapitalizmin qadınların əzilməsinin əsas səbəbi olduğunu iddia edirdi.

1960-cı illərin sonlarında yeni qadın hərəkatlarının yaranmağa başlaması ilə feminizmin *ikinci dalğası* formalaşdı. Hüquq müstəvisindəki tələblərin məzmunu dərinləşərək, qadının "öz müqəddəratını təyinetmə [hüququna] və ictimai yerini" möhkəmlətməyə fokuslandı (Künzel 2012, 52). Bu dalğada 1970-ci illərin başlarında ilk dəfə "gender" sözü britaniyalı sosioloq Ann Okli tərəfindən istifadə edildi və bununla bioloji cins və sosial cins anlayışları bir-birindən fərqləndirildi. Akademik səviyyədə qadın və gender araşdırmaları bu dalğada formalaşdı və araşdırmaların əsasını kişi – qadın fərqliliyi, şəxsi sferadakı problemlər – ev işinin mübahisələndirilməsi, iş bölgüsü, ailə daxili zorakılıq, əmək və cinsi istismar kimi məsələlər ikinci dalğanın əsas mövzularına çevrildi. O cümlədən sinif- irq-cins üçlüyünün qadının əzilməsindəki təsiri müzakirə edildi.

1990-cı illərin əvvəlində *üçüncü dalğa* meydana çıxdı və bu dövrə qədər olan (əvvəlki feminist dalğa və feminist nəzəriyyələrdəki) anlayışları, problemləri və yanaşmaları yenidən mübahisələndirərək, mövcud əsas fərziyyələrə ciddi dəyişiklik gətirdi. "Məzmun analizləri [burada digər feminizmlərin mübahisələndirdiyi məsələlər nəzərdə tutulur] yerinə feminist identifikasiya və ümumi təmsilçilik imkanlarından bəhs edildi, (…) akademik qadın araşdırmaları gender araşdırmalarına, gender araşdırmaları da kuir araşdırmalar müstəvisinə qədər genişləndi" (Künzel 2012, 52). Yəni, bu dövrdən başlayaraq, qadın məsələlərini əhatə edən feminizm anlayışı daha da genişlənərək gender araşdırmaları və kuir araşdırmalar sahələrini də əhatə etdirməyə başladı. Beləliklə, kuir nəzəriyyə heteroseksual normativ və ikili cinsiyyət sistemini əzilmə faktoru kimi mübahisələndirdi, seksuallığın da sosial inşa olduğu iddiasını irəli sürdü.




Beləliklə, bu dövrə qədər olan heteroseksual, ağdərili və qərbli qadınların azadlığı üçün formalaşan feminist məzmun tamamilə dəyişdi, interseksionallıq, heteronormativlik kimi aspektlərə əsaslanan ayrı-seçkilik və kimlik siyasətləri tədqiqatlar mövzusu oldu. Feminist diskursun tədqiqat istiqamətləri haqqında yazmazdan əvvəl feminizmin mərkəzi siyasi cərəyanları – onların çıxış nöqtələri haqqında xülasə etmək istəyirəm. Digər cərəyanlar əsasən bu cərəyanların ideya və prinsiplərindən qaynaqlandığı üçün aşağıdakıları feminizmin mərkəzi siyasi cərəyanları adlandırıram.

**Feminizmdə əsas siyasi cərəyanlar**

| **Feminist Cərəyanlar** | **Feminist cərəyanların məzmunu** |
|---|---|
| Liberal Feminizm | Hüquq bərabərliyi |
| | Emansipasiya |
| Marksist Feminizm | Kapitalizmin cinsi bərabərsizliyin əsası kimi tənqidi |
| Sosialist Feminizm | Patriarxallığın və kapitalizmin cinsi bərabərsizliyin əsası kimi tənqidi |
| Radikal Feminizm | Patriarxallığın tənqidi |
| Qaradərili Feminizm | Sinif-irq-cins əlaqəsi |
| Kuir Feminizm | Cins, seksuallıq, kimlik siyasəti |

## Liberal feminizm: hüquq bərabərliyi və emansipasiya

Liberal feminizmin çıxış nöqtəsi liberal demokratiya əsasındadır və qadınların kişilərin sahib olduğu ictimai, siyasi və iqtisadi hüquqlarla təminatı və qadınların emansipasiyası cərəyanın əsas tələbini təşkil edir. Fransız inqilabından sonra elan edilən insan hüquqları qanunvericiliyində kişilərlə yanaşı qadınların hüquqlarının bərpa edilməsi, səsvermə hüququ, təhsil, peşə və siyasi karyera hüquqlarının əldə edilməsi iddiası liberal feminizmin əsas çıxış nöqtəsidir. İndiki dövrdə isə məişət zorakılığının kriminallaşdırılması, abortların leqallaşdırılması, kvotaların tətbiqi tələbi, qadınları dəstəkləyən dövlət strategiyalarının zəruriliyi, konvensiyaların ratifikasiyası, o cümlədən, işləyən anaların xeyrinə (məzuniyyətlər, uşaq baxıcısı və s.) qanunvericilikdəki dəyişikliklərin və əlavələrin edilməsi tələbi müasir liberal feminizmin əhatə dairəsidir. Liberal feministlər iddia edir ki, "əgər qadınlar kişilər kimi cəmiyyətin bütün sahələrində eyni sayda və tərzdə iştirak edərsə, hüquq bərabərliyi təmin olunur" (Krause 2003, 29). Liberal feminizmin tələbləri iki hissəyə ayrılır; hüquq bərabərliyi və emansipasiya.

### *Hüquq bərabərliyi*

Liberal feminizmin hüquq bərabərliyi dedikdə vətəndaş hüquqlarının təminatı, təhsil alma azadlığı, səsvermə azadlığı və qanunvericilikdə siyasi iştirakçılıq azadlığını nəzərdə tutur. Hüquq bərabərliyi tələbinə əsasən peşə, əmlak, ailədaxili hüquq və siyasi baxımdan bu vaxta qədər aşağı kateqoriya hesab edilən qrup (yəni qadınlar) digər qrupun (yəni kişilərin) səviyyəsinə yüksəldilməli idi (Menschik-Bendele 1977, 29).

Fransa inqilabından sonra 1791-ci ildə parlamentdə qadınların bərəbərhüquqluluğunun təmin edilməsi haqqında *Qadının və qadın vətəndaşın hüquqları haqqında deklarasiya* təqdim edildi.[i] Növbəti il Meri Volstonkraft *Qadın hüquqlarının bəraəti* adlı

qadınların təhsil hüququ, mülki və siyasi haqlarından bəhs edən kitabını nəşr etdi. Bu kitab feminizmin ilk akademik işi kimi tanınır və "feminizmin təməl daşı hesab edilir" (Walters 2005, 35). Bu iki hadisə həm akademik, həm də siyasi-ictimai fəaliyyətdə qadın hüquqları ətrafında İngiltərə və Fransada müzakirələrin başlamasına, populyarlaşmasına və sonradan ABŞ başda olmaqla, digər ölkələrə yayılmasına səbəb oldu.

1850-ci illərdən başlayaraq qadın hərəkatları təşkilatlanmağa başladı. 1866-cı ildə Barbara Smit və tərəfdaşları Londonda *Sufrajistlər Komitəsi*ni (sonrakı adı *Qadınların Seçki Hüququ uğrunda London Cəmiyyəti*) təsis etdilər. 1870-ci ildə isə cəmiyyətin *Qadınların Seçki Hüququ Jurnalı* nəşr edilməyə başladı. 1881-91-ci illərdə fransız sufrajistlər tərəfindən *Qadın Vətəndaş* qəzeti buraxıldı. 1892-ci ildə Parisdə ilk feminist konqres təşkil edildi. 1900-cü illərdə İngiltərədəki sufrajistlərin mübarizəsi digər qərbi Avropa ölkələrinə də yayıldı. Bu dövrdən başlayaraq İngiltərədə Pankhurstlar (ana və iki qızı), Emma Qoldman, Almaniyada Klara Setkin, Rusiyada Aleksandra Kollantai kimi qadın hüquq müdafiəçiləri marksist ideyalar əsasında mübarizələrinə davam etdilər. Birinci və İkinci dünya müharibələri ərzində də birinci dalğa feminizmin liberal və marksist cərəyanları hüquq bərabərliyi uğrunda müəyyən yol qət etdi.

***Emansipasiya***

Emansipasiya sözü (latın sözü *ēmancipātiō*) Roma hüququna görə kölələrin azadlığa buraxılması, latın dili lüğətində də oğulların ataların zorakılığından azad olunması, əmlakın ayrılması mənasındadır (Menschik-Bendele 1977, 29; Löffler 1999). Liberal feminizmin emansipasiya konsepti qadınların bioloji cinsinə əsaslanantabeçilik səbəblərinə diqqət çəkir və qadınların öz həyatlarına dair özlərinin qərar verməli olduğunu iddia edir.

Simona de Bovuar *İkinci Cins* kitabında kişinin subyekt, qadının isə obyekt kimi qəbul edildiyini qeyd edir və onların

bərabər olmalarını tələb edir (Beauvoir 1956). O, liberal feminizmin ilk dalğasında hüquq bərabərliyinin təmin olunmaması və qadının niyə ikinci cins olaraq görülməsinin səbəblərini ortaya qoyur və feminizmdə yeni üfüq açır. Bu yanaşması ilə bioloji və sosial cinsləri bir-birindən ayırd edən konseptin – 1970-ci ildə ortaya çıxacaq "cins" və "gender" anlayışlarının da əsasını qoyur (Künzel 2012, 54). Cəmiyyətin təsəvvürləri və qadına uyğun görülən rolların ona sonradan qazandırılan cəhətlər olduğunu irəli sürərək cinsin mədəni olaraq inşa edildiyini və bu zaman qadına normaların təhkim edildiyini bildirir. Cəmiyyətdə qadına uyğun görülən vəzifələr, rollar və normalar kişi mərkəzli cəmiyyətin istək və tələblərinə müvafiq inşa edilir və bu inşada qadın kişi cinsi ilə müqayisədə daha məhdud və idarə olunan mövqeyə salınır.

Betti Fridan emansipasiya konseptini təqdim edən liberal feministdir. O, emansipasiyanı aktuallaşdırdı və qadınların bu vaxta qədər təhkim edildiyi evdar qadın olmaq üstünlüyünü mühakimə etdi. Evdar qadın olmaq qadınlar üçün üstünlük sayılırdı, çünki "evdar qadın […] demək olar dünyadakı bütün qadınların xəyal etdiyi mərtəbə idi. […] evdar qadın və ana kimi o, kişinin tamamlanmış və bərabər hüquqlu partnyoru kimi bütün cəmiyyət tərəfindən təsdiq edilirdi. Onlar maşın, geyimlər, elektrik cihazları və supermarketlər seçə bilmə imkanına, qadınların xəyal etdiyi hər şeyə sahib idilər" (Friedan 1966, 15). Fridan apardığı sorğuların nəticələrinə görə qadınları ancaq yoldaşlarına, onların vəzifələrinə, fəaliyyətlərinə görə tanındığını dediklərini vurğuladı, kitabında qadınların bu çərçivədən kənar nə etdiklərini soruşdu və onları olduqları vəziyyəti mühakimə etməyə çağırdı (Menschik-Bendele 1977). O, bu cür mühakimə və tənqidlərlə qadınları məişət həyatında sıxışıb qalmamağa, siyasi-ictimai həyata qatılmağa səslədi və həyatları barədə qərarları özlərinin verməli olduğunu vurğuladı. Fridan bununla yanaşı mətbuatda, dövrün qadın jurnallarında qadın obrazının təqdimatını, evdarlığın tərənnüm edilməsini tənqid etdi

(Friedan 1966). O, siyasi-ictimai fəaliyyətə səslədiyi qadınlara xitab edərək “onlar rəqabətdə iştirak etməyi, lakin qadın kimi yox, insan kimi rəqabət aparmağı öyrənməlidirlər. Qadınların bərabərliyi uğrundakı yolda qoyulan maneələrə qarşı çıxan hər qadın növbəti bir qadın üçün yol açır. Həmçinin siyasətdə qadınlar ‘evdar qadın’ kimi yox, bir vətəndaş kimi öz töhfəsini verməlidir” (Friedan 1966, 241).

Liberal feministlərin tələb etdiyi hüquq bərabərliyi və emansipasiya ancaq bir mərhələyə qədər gələ bildi. Cinsdən qaynaqlanan problemlər təkcə qanunvericilik dəyişikliyi və ya liberal demokratiyanın norması çərçivəsində öz həllini tapmadı. Hər nə qədər liberal feminizmin ikinci dalğa təmsilçiləri yeni üfüq açsalar da, “onlar mühafizəkar idilər, çünki öz tələblərini qadın hüquqları uğrundakı mübarizənin tarixi kontekstində qurmuşdular və bu strukturdan kənara çıxmırdılar; buna baxmayaraq onlar inqilabçı idilər, çünki [onların fəaliyyətləri nəticəsində] feminizmin doğuşu [və] qadın hərəkatlarının başlanması ilə qadınların özünə inamı bərpa olundu” (Menschick-Bendele 1977, 41).

**Marksist və sosialist feminizm: kapitalizm və cins**

Marksist feminizm bərabərliyin qanunla təmin olunacağını iddia edən liberal feministlərə tənqidi yanaşaraq iddia edir ki, istehsal və mülkiyyətin qeyri-bərabər bölgüsü davam etdiyi müddətcə qadın və kişi bərabərliyi olmayacaq. Marksist yanaşmaya görə, cinslərarası bərabərsizlik iqtisadi münasibətlərdəki ədalətsizlikdən qaynaqlanır və sinifləşmə bütün insanların, o cümlədən qadınların əzilməsinə gətirib çıxarır.

Marksist feminizm barədə danışmağa başlamazdan əvvəl xatırlatmaq lazımdır ki, Karl Marks feminist deyildi, o, sinif və bərabərsizlik barədə düşüncələrini qadın perspektivindən nəzərə almırdı (Bryson 2003; Menschik-Bendele 1977). Bu, onun qadın azadlığına qarşı olduğu anlamına gəlmir, lakin Con Süart Mill və Vilyam Tompsondan fərqli olaraq, o, cinsdən

qaynaqlanan əzilmə məsələlərini öz maraqları baxımından əhəmiyyətli görməyib və bunları heç vaxt detallı empirik və ya nəzəri araşdırmaların mövzusu etməyib (Bryson 2003, 56). Onun nəzəriyyəsi bəşər tarixi və cəmiyyətin təhlilinə yönəlik idi və davamçıları bunu feminist müstəviyə daşıyıb (Bryson 2003, 56). Brison qeyd edir ki, “o cümlədən, Engels əsərlərini qadın perspektivini nəzərə alaraq yazmırdı, burjua qadın və proletar qadın arasında əzilmə fərqini də iqtisadi əsaslarla izah edirdi; [Engelsə görə] burjua qadın evliliyində kölədir, çünki o, mülk, iqtisadi təminat qarşılığında doğuş maşını və seks xidmətçisi rolunu oynamaqla köləliyə təhkim olunub” (Bryson 2003). Brison qeyd edir ki, “Engelsin burada apardığı qadın-kişi müqayisəsi belədir ki, burjua ailədə kişi burjua, qadın isə proletar qismindədir; proletar ailədə isə o, qadının əmək və cinsi köləliyindən bəhs etmir, hesab edir ki, bu ailənin əsasını mülk münasibətləri təşkil etmədiyindən hər iki cins bərabərdir” (Bryson 2003, 56). Marksist feminizmdə proletar qadının azad (əzilməyən) qadın kimi görülməyi və cinslərarası münaqişənin sonlanmasında yalnız kapitalist transformasiyanı əsas götürmələri digər feministlər tərəfindən tənqid edilir. Qadın tabeçiliyinin sonlanmasında iqtisadi faktor vacib yer alsa da, bu, cinsi tabeçilik problemin həlli üçün təkbaşına yetərsiz amildir. Kapitalist nizam cinsi tabeçiliyi və bərabərsizliyi artıran faktordur, lakin cinslər barədə təsəvvürlər, təyinatlar, gender rolları təkcə kapitalist nizamdan qaynaqlanan problemlər deyil. Bu, kapitalist mühitdə daha da dərinləşən problemlərdi. Marksist feminizm məzmunca genişləndiyi üçün onu iki dövrə ayırmaq lazımdır: feminizmin birinci dalğasında formalaşmış *klassik marksist feminizm* və ikinci dalğa feminizmdə formalaşmış *sosialist feminizm*.

***Klassik marksist feminizm***

Klassik marksist feministlər qadınların əzilməsinin aradan qaldırılması üçün iqtisadi nizamın dəyişməsi və sosialist cəmiyyətin qurulması istiqamətində mübarizəyə fokuslanmışdı. İddia edilirdi ki, əgər kapitalizm sonlanarsa, bu, qadınların əzilməsinin və istismarının sona çatması ilə də nəticələnəcək.

Klassik marksist feministlərin yanaşması əsasən August Bebelin *Qadın və Sosializm* kitabına əsaslanırdı və qadınların fəallığı, inqilabçılığı ilə sosializmin qurulmasını bərabərliyin təmin olunması kimi görürdülər (Bryson 2003). Qadınların istismarı və qeyri-bərabərliyin səbəbi kapitalist sistemdə, məhz burjua ailə institutunda görülür, qadın məsələlərinə dair yanaşmalarda ev işlərinin ictimai xarakter daşımasını və digər işlər kimi qadının ailədəki əməyinin ödənişli olmalı olduğu müdafiə edilirdi. Ancaq niyə ev işi qadına xas görülür müzakirə edilmirdi. Klassik marksist feministlər liberal feministlərlə əməkdaşlıq etmirdi, iqtisadi nizam dəyişmədikcə, qanunvericilikdə qadına verilən hüququn effektli təsiri olmayacağını iddia edirdilər (Bryson 2003, 107).

***Sosialist feminizm***

1960-ci ildən başlayaraq feminizmin ikinci dalğasında radikal feminizm kimi yeni cərəyanlar meydana gəldi və *şəxsi olan siyasidir* yanaşması ilə feminist diskursda şəxsi sferanın mübahisələndirilməsi ictimai müstəviyə daşındı. Qadın məsələləri üzrə debatlar üç əsas anlayış üzərinə köklənmişdi: *patriarxlıq*, *reproduktivlik* və *ideologiya* (Barret 2014). Klassik marksist feminizm məzmunca yeniləndi və sosialist feminizm formalaşdı. Marksist ideyalar əsasında patriarxallığa qarşı mübarizə aparan sosialist feminizmin əsas mülahizələri aşağıdakı kimidir (Ehrenreich 1976):

1. Sosialist feminizmə görə, sinif və cins dominantlığının əsasında zorakılıq var. İnsanlar bir başa zorakılıqla üzləşməsələr də, sinif və cins hökmranlığına tabe olurlar.
2. Sosial olaraq parçalanmış işçi sinif mülkiyyətsizləşdirilərək təcrid edilib və kapitalist nizamdan asılı hala gətirililib;
3. İşçi sinifini parçalayan güc eyni zamanda qadını kölələşdirən gücdür. Kapitalist dəyərlərin nüfuz etdiyi

ailə və iş həyatı qadını əzilməyə təhkim edir. Qadın daha passiv və feminin hala gətirilir. Qadının bu halı kapitalist dəyərlərin daha da möhkəmlənməsində əlverişli olduğu üçün qadınların passivliyi və femininliyi kapitalizmə sərf edir;

4. Qadının əzilməsi və sinifləşmə bir-biri ilə əlaqəlidir. Qadınların iqtisadi olaraq güclənməsi üçün çıxış edən qruplar xaric, necə ki, digər qadın mübarizələri anti-kapitalist xarakter daşımır, anti-kapitalist mübarizələrin də hamısı qadınların əzilməsi problemini mübahisələndirmir. Halbuki, sinifləşməni sonlandırmaq qadınların azadlığı ilə birbaşa bağlıdır.

**Radikal feminizm: Patriarxallığın tənqidi**

Əvvəlki cərəyanlar (liberal və klassik marksist feminizm) qadınların səsvermə hüquqları, əmək və məşğulluq azadlıqları, əməyin istismarı, təhlükəsiz iş mühiti, layiqli maaş kimi *ictimai sferadakı* ədalətsizliyə və bərabərsizliklərə fokuslanmışdı. Radikal feminizm isə *şəxsi sferadakı* ədalətsizlik və bərabərsizlik problemini ilk dəfə mübahisələndirdi. 1960-cı illərin sonu ABŞ-da *Qadınların Azadlıq Hərəkatı* ilə meydana çıxan radikal feminizm oturuşmuş dəyərləri mühakimə edərək bərabərliyə dair tələbi ictimai sferadan şəxsi həyat müstəvisinə dəyişdi (Gunew 1992). Brison da radikal feminizmin nəzəri başlanğıc nöqtəsini izah edəndə qeyd edir ki, radikal feministlərə görə, kişi gücü (hökmranlığı) təkcə siyasət, gəlirli məşğulluq sahələri ilə məhdudlaşmır, həm də şəxsi sferaya sirayət edir; bu o deməkdir ki, *güc* və *siyasət*ə dair ənənəvi anlayışlar patriarxal dominantlıq alətləri olan ailə və seksuallıq kimi "şəxsi" sahələrə qədər meydan oxuyur və genişlənir (Bryson 2003, 163-165).

Liberal və klassik marksist feminizmdən fərqli olaraq radikal feminizmin əsas vurğusu mövcud siyasi sistemin, əmək bazarının yox, ailə, evlilik və partnyorluq kimi sosial və mədəni

institutların dəyişdirilməsinin zəruriliyi idi (Krause 2003, 32). Radikal feminizm ictimai və şəxsi həyatdakı ədalətsizliyin bir-birindən ayrı olmadığını irəli sürür, əzilmənin əsasının ailə institutu başda olmaqla, sosial və mədəni institutlardan başladığını iddia edir. Ona görə radikal feministlər məhz ailə institutunu patriarxallığın dayağı kimi görür, məişət işləri, evlilikdə cinsi istismar, ailə daxili zorakılıq, reproduktivlik kimi sahələri qadının əzilməsi və kişinin qadın üzərindəki dominantlığının başlanğıcı kimi əsaslandırır. İddia olunur ki, qadının əzilməsinin əsas səbəbi cinslər arasındakı reproduktiv fərqdədir və bu, bərabərsizliyin əsasını təşkil edir. Qadın bədəni dövlət, cəmiyyət və kişi fərdlər tərəfindən istismar edilir.

Radikal feminizm liberal və marksist feminizmlərdən fərqli olaraq, kişilər tərəfindən *emal edilmiş* siyasi ideologiyalar üzərindən yox, qadınların öz təcrübələrindən irəli gələn düşüncə əsasında formalaşmağı əsas tutdu. Bu, radikal feministlər üçün prinsip idi və kişi mərkəzli heç bir ideologiyanı əsas götürmədən qadın təcrübəsi əsasında öz yanaşmalarını irəli sürdülər. Onlar qadınların əzilməsini dominantlığın ən fundamental və universal forması kimi görür, bunu başa düşməyi və sonlandırmağı hədəfləyirdi; burada "patriarxallıq" əsas termin idi (Bryson 2003, 163). Keyt Millet *Seksual Siyasət* kitabında ilk dəfə *patriarxallıq* anlayışının nə olduğunu açıqladı (Millet 1969). Patriarxallıq yalnız kişilərin üstünlüyü üçün təsis edilmiş, cəmiyyətin digər qrupları üçün əlverişsiz vəziyyət yaradan və onları nəzarətdə saxlayan sistem sayılır. "Ordu, sənaye, texnologiya, universitetlər, elm, siyasi qurumlar və maliyyə kimi cəmiyyətdə güc faktoru olan hər bir işin kişilərin əlində olması" patriarxallığın mahiyyəti hesab edilir (Millet 1983, 34). Bura qədərki dövrdə heç vaxt müzakirə edilməyən patriarxallığı nəzəri olaraq irəli sürən bu cərəyan feminist diskursda yeni səhifə açmış oldu.

Adında qeyd olunduğu kimi radikal feminizmi *radikal* kimi göstərən və qadının əzilməsinin sonlanması üçün irəli sürdüyü

iki əsas yanaşması belədir: (1) Radikal feministlər qadın və kişi fərqliliyini önə çəkir, qadın və qadınlığı yüksəldir. Patriarxallıqda qadını əzilən və istismar edilən mövqedən çıxarıb, qadınların kişilərdən daha üstün olduğunu vurğulayır; (2) Radikal feministlər mövcud cəmiyyətin dəyişəcəyinə və patriarxallığın daxildən dəyişərək sonlanacağına inanmır və buna görə də qadınların azad olması üçün patriarxal cəmiyyətin strukturları və kişilərlə birgə əməkdaşlığı rədd edir. Bu cərəyan qadınların daha üstün və dəyərli olduğu üçün kişilər ilə əməkdaşlığın mümkünsüzlüyünə inanır və qadınların ancaq öz aralarında əməkdaşlığını müdafiə edir (Bryson 2003).

**Qaradərili feminizm: sinif-irq-cins**

1970-ci illərin əvvəlində bu dövrə qədərki feminist mübarizənin məzmununa və onların tələblərinin yarımçıq olduğuna tənqidi yanaşaraq meydana gələn qaradərili feminizm feminist diskursda sinif-irq-cinsin əlaqəli olduğunu üzə çıxardı. Qaradərili feminizmin ortaya çıxması ilə feminist diskurs yeni şəkil aldı və cins əsaslı problemin əhatəsi genişləndi. Qaradərili feministlər ağdərili feministlərin yalnız orta sinif qadının problemlərini qabardaraq, bu problemi bütün qadınların problemi kimi təqdim etməsinə, digər sinif və irqdən olan qadınların təcrübələrini marginallaşdırmasına qarşı çıxdı. Qaradərili feministlər hesab edirdilər ki, ağdərili qadınların dominant olduğu feminist diskurs yalnız ağdərili və orta sinif qərb qadınlarının üzləşdiyi təzyiqləri ifadə edir, lakin ağdərili olmayan qadınlar və kasıb təbəqənin ağdərili qadınlarının problemləri əhatə edilmir (hooks 1984). Qaradərili feminizm ağdərili qadının ancaq öz təzyiq və əzilmə meyarlarını əsas götürərək, digər qadınların bu təcrübələrini gözardı etməsini ifşa edir; əzilmə hallarının bərabər yox, sinif-irq-cins və digər sosial kateqoriyalar əsasında qeyri-bərabər olduğunu vurğulayır; marginallaşmış bütün sosial qrupların hüquqlarını əhatə etməyə çalışır. Bununla da qaradərili feminizm əsasən afro-amerikalı və qeyri-ağdərili qrupların səsi olmağı hədəfləyir.

Qaradərili feminizmin nəzəri yanaşmasına görə qadınların üzləşdiyi problemlər tək səbəbli deyil və qadınların üzləşdiyi fərqli istismar kontekstləri var. Ağdərili qadının istismar dərəcəsi qaradərili və kasıb qadınların istismar dərəcələri ilə fərqlidi. Ağdərili qadın cinsinə görə ayrı-seçkiliyə məruz qaldığı halda, qaradərili qadın həm cins, həm irq, həm də sinfinə görə istismara və ayrı-seçkiliyə məruz qalır. Sinif, irq və cins bir-birinə bağlıdır və ağdərili qadın bu təcrübəni yaşamadığı üçün onu gözardı edir.

Qaradərili feminist bell huks[ii] liberal feminist Fridanın *Feminist Mistika* kitabını sinif-irq-cins aspektindən tənqid edir. O, Fridanın*"biz qadınların ´mən ərdən, uşaqdan və evdən daha  çox şey istəyirəm´ səsini iqnor edə bilmərik"* deyə qeyd etdiyi cümləsində müəllifin yalnız orta sinif ağdərili qadının ehtiyacını səsləndirərək, digər təbəqə və rəngdəki qadınları bu kontekstdə çıxdaş etdiyini bildirir: "Burada ´daha çox´ deməklə o, karyeranı nəzərdə tutur. O, özü kimi daha çox qadının məişət işindən azad olub, ağdərili kişi ilə bərabər karyera imkanı əldə etdiyi halda, uşaqlarına baxmaq və evində qulluq etmək üçün kimin çağırılacağını müzakirə etmir" (hooks 1984, 1). Qaradərili feminizm bu kontekstdə ağdərili qadını və qaradərili kişiləri eyniləşdirir (hooks 1984): ağdərili qadın cinsiyyətçilik, qaradərili kişi isə irqçilik qurbanıdı. Lakin ağdərili qadının qaradərili qadınlara qarşı irqçi yanaşması və qaradərili kişinin cinsiyyətçiliyi və əzici yanaşması qaradərili qadının qatbaqat əzilməsinin əsasını təşkil edir. Qaradərili qadın həm ağdərili qadın və ağdərili kişi, həm də qaradərili kişi tərəfindən əzilir. Qaradərili feminizm buna görə də bu qatbaqat (interseksional) əzilməyə qarşı mübarizə aparır.

**Kuir Feminizm: identifikasiya və heteronormativlik problemi**

1990-cı illərdə Amerikada yaranmış kuir nəzəriyyədən çıxış nöqtəsini götürən kuir feminizm cins və seksuallığın təbiətdən gələn olmadığını və hər ikisinin sosial kultural proseslər nəticəsində inşa edildiyini müdafiə edir. Kuir nəzəriyyə

dekonstruksiya, poststrukturalizm, diskurs təhlili və gender tədqiqatlarının metod və biliklərinə əsaslanaraq, seksual kimlikləri, iqtidar formalarını və normaları təhlil edir və dekonstruksiya edir (Notz 2011, 21). “Kuir” sözü 1990-cı illərə qədər homofob söyüş kimi istifadə edilib. Kuir nəzəriyyəsi kuir terminini öz məqsədləri üçün mənimsəyib, ona pozitiv mənalar yükləyərək, tipik strategiyadan istifadə edib stiqmanı aradan qaldırır (Əliyev 2020). Yəni, ikili cins sisteminə uymadığı üçün çıxdaş edilən LGBT bu çətir termin altında təmsil edilir. Bir neçə ildir ki, kuir başqa cür, yəni seksual qrupların siyasi birliyi üçün ümumi anlayış kimi lezbiyan və gey tədqiqatlarına istinadən inkişaf etdirilən yeni nəzəri konsept kimi istifadə edilir (Jagose 2005, 13).

Kuir feminizm sosial münasibətlər kontekstində fərdlərin kimlik siyasətini mübahisələndirir və kimliyin hər zaman ideologiyalar vasitəsi ilə formalaşması iddiasına fokuslanır. Cagoz fərdlərin identifikasiyası və kimlik siyasətlərindən danışarkən, fərdlərin ideologiyalar vasitəsi ilə təkcə cəmiyyətdəki mövqelərini yox, eyni zamanda kimlik haqqında qavrayışlarını da formalaşdırdığını deyir (Jagose 2005, 102). Çıxış nöqtəsini poststrukturalizmdəki subyektivlik anlayışından (Jak Lakana görə, subyektivlik mövcud deyil, o, ancaq təcrübə edilərək öyrənilir) götürən kuir feminizmin cins və seksuallıq üzərindən fokuslandığı məqam odur ki, “kimlik digərləri və digərlərə qarşı identifikasiya nəticəsidir: o, xüsusiyyət yox, davam edən prosesdir ki, həmişə natamam qalır” (Jagose 2005, 103).

Buna görə də cins kateqoriyalaşdırma sistemini (bioloji cins, sosial cins, cinsi arzu və cinsi təcrübəyə görə münasibətlərin kultural-siyasi tənzimlənməsi) və bundan yaranmış tabeçilik problemlərini kuir feminizm həm də heteronormativlik probleminə bağlayır. Heteronormativlik bioloji cins və sosial cinsə uyğun olaraq cinsi arzu və cinsi təcrübənin yalnız qadın və kişi arasında olduğunu təbiiləşdirir və digər cinsi təcrübələri rədd edir (Hartmann 2007). Kuir feminizm bu nöqtədə zorakı heteroseksuallığı təkcə kultural yox, siyasi

element olaraq xarakterizə edərək, bioloji cins, sosial cins və cinsi arzunun bioloji fərd üzərində cins təyinatı etməsini yetərsiz və problemli görür, çünki bu təyinat heteronormativ əsasla bioloji və sosial cinsi qəlibləşdirərək kateqoriyalaşdırma yaradır.

**Feminist tədqiqat istiqamətləri**

Elm, fəlsəfə və bütün digər siyasi-ictimai, sosial-mədəni sahələrə gender perspektivindən baxdıqda məlum olur ki, bu sahələr kişi mərkəzli təsis edilib. Feminist nəzəriyyəçilər və tədqiqatçılar tərəfindən bu sahələr, həmçinin dil siyasəti – linqvistika, biologiya, siyasətşünaslıq kimi kişi mərkəzli sahələr təftiş edilir. Faydalanan qruplar cins üzərində qurulmuş sistemin təftişində maraqlı deyil, lakin gender tədqiqatı cinsi güc/iqtidar elementi kimi və universal kateqoriya olduğunu üzə çıxarmaq istiqamətində iş aparır (Schößler 2008,15). İnsanlar arasındakı münasibətləri, cins əsaslı problemləri mübahisələndirərək, yeni bir perspektiv yaratdığına görə feminizmin siyasi nəzəriyyə olaraq tanınması irəli sürülür (Schößler 2008).

| ***Feminist araşdırma istiqamətləri*** | ***Feminist araşdırma istiqamətlərinin mövzuları*** |
|---|---|
| **Qadın Araşdırmaları** | Qadınların marginallaşması, ayrı-seçkilik, qadınlıq obrazları, zorakılıq, qətllər, istismar, qadınların sinif, irq və etnik kimlik faktorları əsasında əzilmə mexanizmlərinin tədqiqi |
| **Gender Araşdırmaları** | Cins konstruksiyası, seksuallığın konstruksiyası və status təyinatının əlaqələrinin tədqiqi |
| **Genderlərarası münasibətlər üzrə Araşdırmalar** | Tarixi, siyasi, ictimai, sosial-mədəni kontekstdə cinslərarası əlaqələrin konfiqurasiyasının tədqiqi |

Feminist akademik fəaliyyət üç istiqamətdə iş aparır: *Qadın araşdırmaları, gender araşdırmaları* və *genderlərarası*

*münasibətlər üzrə araşdırmalar*. Bu üç fərqli istiqamət və onların tədqiqat mövzuları belə təsnifləndirilir (Becker-Schmidt və Knapp 2011):

1. *Qadın araşdırmaları* qadınların sosial, mədəni mənsubiyyəti, rəngi və irqinə əsaslanan həyat şərtlərindəki fərqlilikləri nəzərə alaraq, qadınlara yönəlik bütün sferalardakı əzilmə, istismar və ayrı-seçkilik hallarını öyrənir, mübahisələndirir. Bu o demək deyil ki, burada yalnız qadınlar əsas götürülür və kişi cinsinə istinad edilmir; o, [kişi] müqabil və kontrast, güc faktoru və sərhəd xətti kimi götürülür (Becker-Schmidt və Knapp 2011, 37). Eyni zamanda bu tədqiqat istiqaməti qadının elmdəki təqdimatının, cəmiyyət təsəvvürünə uyğun qadına biçilmiş rolların mahiyyətini araşdırır. Qadın araşdırmaları sahəsi qadının cəmiyyətdə marginallaşması, ayrı-seçkilik, qadınlıq obrazları, zorakılıq, istismar, qadınların sinif, irq və etnik kimlik faktorları əsasında əzilmə mexanizmləri zəncirinə diqqət çəkir. Bu tədqiqatlar müxtəlif dövrlərdə marginallaşmış qrupa dair yanaşmaların və ona olan münasibətlərin dəyişməsinə töhfə verir.
2. *Gender araşdırmaları* – Qadın araşdırmalarına olan tənqid təkcə fərqli yanaşmaya yox, yeni elmi yanaşmaya – gender araşdırmalarına – gətirib çıxardı (Krause 2003, 21). Gender tədqiqatı cins konstruksiyası, qadınlıq və kişiliyin konstruksiyası, cinsiyyətə xas qəlibləşmə və status təyinatının əlaqələri ilə məşğul olur (Becker-Schmidt və Knapp 2001; Krause 2003). Bu tədqiqat sahəsinin mərkəzi sualları cinsin mədəniyyət, cəmiyyət və elmdə necə əlaqələndirildiyini və tematikləşdirildiyini əhatə edir: “Cins anlayışı necə yaranıb? Ona hansı məna yüklənib və bu anlayışın siyasi gücün bölüşdürülməsində, sosial strukturlarda, elm, mədəniyyət və incəsənətdə hansı təsirləri var?” (Krause 2003, 21). Gender tədqiqatlarında aparılan elmi fəaliyyətlər çıxış nöqtəsini postmodern nəzəriyyələrdən

alır və cins, seksuallıq, heteronormativlik, ikili cins sistemini mübahisələndirir. Gender tədqiqatı sahəsi, xüsusən, 1990-cı ildən yayılıb və Mişel Fuko, Derrida, Lakan fərziyyələrinə istinad edərək, cins haqqında dekonstruktiv yanaşmalar irəli sürür.

3. *Genderlərarası münasibətlər üzrə araşdırmalar* – Bu tədqiqat istiqaməti yuxarıdakı hər iki tədqiqat istiqamətindən fərqlənir, daha çox tarixi, siyasi, ictimai, sosial-mədəni kontekstdə cinslərarası əlaqələrin konfiqurasiyasına fokuslanır. Cinslər cəmiyyətin müxtəlif sferalarında (ailə, təhsil, əmək bazarı, məşğulluq strukturu, sosial dövlət) “sosial güc” olaraq bir-biri ilə toqquşur (Becker-Schmidt və Knapp 2011, 39). Burada gücün ədalətsiz bölgüsü hansı aspektlər üzərindən çıxış edərək formalaşdığı tədqiq edilir. Tədqiqat sualları bunları əhatə edir: “Hansı mexanizmalar (stereotipləşdirmə, sinifləndirmə, ayırma, iyerarxiyalaşdırma) vasitəsi ilə cəmiyyətdə qadınların və kişilərin ümumiləşdirilməsi baş verir? Bu inşanın meyarları və prinsipləri nələrdir? (məs; kimlik prinsipi bir normlaşdırma prinsipidir). Hansı məntiq (məs: arxasında gerçək klassifikasiyanın olduğu iqtidar məntiqi) əsasında cinsiyyətləndirilmiş vahidlər bir-biri ilə toqquşur?” (Becker-Schmidt və Knapp 2011, Krause 2003, 22).

Gender və gender münasibətləri üzrə aparılan tədqiqat işlərinin hamısının feminist xarakter daşıyıb-daşımaması da müzakirə edilir. Cins ətrafında yanaşmaların şaxələnməsi və sahənin tədqiqat mövzularının məcrasının fərqlənməsi bəzi araşdırma işlərinin feminist xüsusiyyət daşımadığını ortaya çıxarır. Burada “feminist xarakterli” dedikdə yalnız müəyyən təhlil yanaşması ortaya qoymaq yox, elmi müstəvidə tənqidi və emansipativ xarakter daşıma nəzərdə tutulur (Krause 2003, 27). İndiyə qədər gender mövzusunda aparılan elmi tədqiqatların heç də hər forması “feminist” xarakterli deyil (Becker-Schmidt və Knapp 2011, 11).

Qadın və gender araşdırmaları və feminist hərəkatlar müxtəlif feminist nəzəriyyələrə əsaslanır. Feminist nəzəriyyələr çıxış nöqtəsini fəlsəfi, sosioloji və ideoloji nəzəriyyələr üzərindən götürərək formalaşır. Psixoanalitika, sosial psixologiya, sosializasiya nəzəriyyəsi, marksist nəzəriyyə, interseksionallıq, postmodernizm və poststrukturalizm kimi istiqamətlər üzərindən qadın və kişi, bioloji və sosial cins subyektləşdirilir və bu subyektlərin necə yarandığına, onlar haqqında sosial təsəvvürlərin necə formalaşdığına dair feminist filosoflar tərəfindən yanaşmalar irəli sürülür. Feminist nəzəriyyəçilərdən *Cozefin Donovan, Nensiy K. Miller, Cudit Batler, bell huks, Simona de Bovuar, Lusi İrigaray, Elizabet A. Grosz, Donna Haravey, Vendi Broun, Anne Filipps, Regine Gildemayster* və başqalarının adı çəkilir.

**Nəticə**

Bu yazıda feminist diskursun təməl çərçivəsi təqdim edildi. Qadın tabeçiliyi və cins ətrafında baş verən problemlərə qarşı əsas siyasi-feminist yanaşmalar xülasə edildi. Beləliklə, qadın tabeçiliyinin sonlanması, cins anlayışının konstruksiyası, cinslərarası münaqişənin həll yolları üçün müxtəlif feminist yanaşmaların olduğu üzə çıxır. Feminizm hər zaman prosesdə olan və məzmunca genişlənən diskursdur. Yazıda da göründüyü kimi hər əsr və dövrlərdə cinsi tabeçilikdən qaynaqlanan yeni problemlər aşkar edilir və bu problemə dair mövqe getdikcə təkmilləşir. Buna görə feminizmdə ümumilikdən danışmaq mümkün olmadığı kimi, cinsdən qaynaqlanan problemlərə də bir bucaqdan baxmaq natamam qalır. Feminist tədqiqatlar da cins ətrafında problemin kompleks şəkildə olduğunu göstərir.

Buradan yola çıxaraq, Azərbaycanda da son dövr aktuallaşan feminizmə və problemlərə feminist yanaşmaya qarşı yaranan qeyri-konstruktiv müzakirələrin əsasının təməl çərçivədən kənarda qaldığı görülür. Azərbaycanda mühafizəkarlıqla yanaşı, məlumatsızlığın da antifeminizmin və əsassız mövqelərin formalaşmasına gətirib çıxardığı müşahidə edilir. Odur ki, bu yazı müzakirələrə qoşulanlar və problemlərə feminist

yanaşmadan baxmağa çalışanlar üçün bələdçi sayıla bilər.

**İstinadlar**

[i] Qadınların Fransa inqilabında kişilərlə birgə iştirak etməsinə baxmayaraq vətəndaş hüquqları onlara şamil edilmirdi. Olimp de Qus 1793-cü ildə yalnız kişilərə hüquq tanıyan vətəndaş hüquqlarına dair qanuna qarşı çıxaraq qadınlara da eyni hüquqlarının verilməsini, onların siyasi iştirakçılığının təmin edilməsini tələb etdi. O, feminist fəaliyyətinə görə dəfələrlə həbs, həmin ilin 3 noyabr tarixində isə edam edildi (Menschik-Bendele 1977, 21).

[ii]Adını hər zaman kiçik hərflərlə yazır.

**Ədəbiyyat siyahısı:**


1. Barrett, Michèle; Weeks, Kathi (2014): Women’s Oppression Today. The Marxist/Feminist Encounter. 3rd ed. London: Verso.
2. Becker-Schmidt, Regina; Knapp, Gudrun-Axeli (2011): Feministische Theorien zur Einführung. 5., ergänzte Auflage. Hamburg: Junius (Zur Einführung, 348).
3. Beauvoir, Simone de (1956): Das andere Geschlecht. Sitte und Sexus der Frau. Hamburg: Rowohlt.
4. Bryson, Valerie (2003): Feminist political theory. An introduction. 2., revised and updated ed.
5. Butler, Judith (1993): Das Unbehagen der Geschlechter. Dt. Erstausg., 3. [Aufl.] (Edition Suhrkamp).
6. Connell, Raewyn (2015): Der gemachte Mann. Wiesbaden: Springer Fachmedien Wiesbaden.
7. Dohm, Hedwig (1976): Die Antifeministen. Ein Buch der Verteidigung. [Nachdr. der Ausg.] Berlin 1918.
8. Əliyev, Vahid (2020): Kiborq və Kuir. https://medium.com/@rafaeloghlu
9. Ehrenreich, Barbara (1976): What is Socialist Feminism? https://www.marxists.org/subject/women/authors/ehrenreich-barbara/socialist-feminism.htm

10. Künzel, Annegret (2012): § 2 Feministische Theorien und Debatten. In: Lena Foljanty und Ulrike Lembke (Hg.): Feministische Rechtswissenschaft: Nomos, S. 52–73.
11. Friedan, Betty (1966): Der Weiblichkeitswahn oder die Mystifizierung der Frau. [ein vehementer Protest gegen das Wunschbild von der Frau]. 1. – 15. Tsd.
12. Gildemeister, Regine; Wetterer, Angelika (1992): Wie Geschlechter gemacht werden Die soziale Konstruktion der Zweigeschlechtlichkeit und ihre Reifizierung in der Frauenforschung.
13. Gunew, Sneja (Hg.) (1992): A reader in feminist knowledge. reprint. London: Routledge.
14. Hartmann, Jutta (2007): Heteronormativität. Empirische Studien zu Geschlecht, Sexualität und Macht. 1. Aufl. Wiesbaden: VS Verlag für Sozialwissenschaften (Studien interdisziplinäre Geschlechterforschung, Bd. 10).
15. hooks, bell (1984): Feminist Theory – From Margin to Center. South End Press, U.S.
16. Jagose, Annamarie; Genschel, Corinna (2005): Queer theory. Eine Einführung. 2. Aufl.
17. Krause, Ellen (2003): Einführung in die politikwissenschaftliche Geschlechterforschung (Politik und Geschlecht).
18. Löffler, Wolfgang (1999): Langenscheidts Universalwörterbuch Latein. Lateinisch-deutsch; deutsch-lateinisch. Neubearb. 1998, 2. Aufl. Berlin: Langenscheidt.
19. Menschik-Bendele, Jutta (1977): Feminismus. Geschichte, Theorie, Praxis. Zugl.: Berlin, Univ., Diss., 1977. Köln: Pahl-Rugenstein (Kleine Bibliothek Politik, Wissenschaft, Zukunft, 87).
20. Millet, Kate (1983): Sexual Politics. Doubleday and Company, Canada.
21. Mauer, Susanne (2019): Antifeministen (1902). In: Näser-Lather, Marion; Oldemeier, Anna Lena; Beck, Dorothee (Hg.) Backlash!? Antifeminismus in Wissenschaft, Politik und Gesellschaft. Roßdorf: Ulrike Helmer Verlag (Reihe

Geschlecht zwischen Vergangenheit und Zukunft des Zentrums für Gender Studies und Feministische Zukunftsforschung der Philipps-Universität Marburg, Band 8).
22. Notz, Gisela (2011): Feminismus (Basiswissen Politik, Geschichte, Ökonomie).
23. Planert, Ute (1998): Antifeminismus im Kaiserreich. Indikator einer Gesellschaft in Bewegung.
24. Schößler, Franziska (2008): Einführung in die Gender Studies: De Gruyter.
25. Thomitzek, Heike (2012): Männerforschung. Diskriminierung von Männern. München: AVM.
26. Walters, Margaret (2005): Feminism. A very short introduction. Oxford University Press